**“Dövlət qulluğunda gender bərabərliyi üzrə Kurikulum” haqqında məlumat**

“Dövlət qulluğunda gender bərabərliyi üzrə Kurikulum” dövlət idarəetməsində və qərarqəbuletmədə gender bərabərliyinin təmin edilməsi istiqamətində görülən işlərin davamı olaraq, 2021-ci ilin avqust ayında Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin, Dövlət İmtahan Mərkəzinin, Bakı Dövlət Universitetinin və Almaniya Beynəlxalq Əməkdaşlıq Cəmiyyətinin birgə təşkilatçılığı ilə “Gender (kişi və qadınların) bərabərliyinin təminatları haqqında” Qanunun, eləcə də “Qadınlara qarşı ayrı-seçkiliyin bütün formalarının ləğv olunması haqqında” BMT Konvensiyasının, Avropa Şurasının “Gender bərabərliyi Strategiyası”nın müvafiq bəndlərinin icrası məqsədilə çap edilmişdir. Vəsait Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi sədrinin 10 iyun 2021-ci il tarixli, 91 nömrəli əmri ilə təsdiq edilmiş, eyni zamanda Bakı Dövlət Universitetinin Sosial elmlər və psixologiya fakültəsinin Elmi Şurasının 22 iyun 2021-ci il tarixli, 7 nömrəli Protokolu ilə Kurikulum kimi təsdiq edilmişdir.

Beynəlxalq konvensiyalara və milli qanunvericiliyə əsasən hazırlanan Kurikulum bu sahədə yaxşı təcrübənin formalaşdırılması, səmərəli idarəçilikdə gender bərabərliyinin daha yaxşı təşviq edilməsi, dövlət qulluğuna qəbul zamanı sualların gender analizinin aparılması, dövlət qulluqçularının gender bərabərliyi sahəsində təlimatlandırılması və gender məsələlərinə dair həssaslığın artırılması, dövlət qulluğu sistemində gender bərabərliyinin təmin edilməsi sahəsində bərabər imkanlar, iş yerində seksual qısnama hallarının aradan qaldırılması istiqamətində tədbirlər barədə onların məlumatlandırılması və digər məsələlər baxımından əhəmiyyətlidir. Kurikulum “Konseptual Mövqe”, “Kurikulumun Məqsədləri, Prinsipləri və Məzmunu”, “Dövlət qulluğunda fəaliyyətin qiymətləndirilməsi” adlı 3 fəsildən və “Kurikulumun icrasının təmin edilməsi ilə bağlı Tövsiyələr”dən ibarətdir.

Vəsait dövlət qulluqçuları, bələdiyyələr, tələbələr, müvafiq fənləri tədris edən müəllimlər, elmi işçilər, hüquqşünaslar, ümumiyyətlə, dövlət idarəçiliyində gender məsələsi ilə maraqlanan oxucular üçün faydalı informasiya mənbəyi hesab olunur.

Dövlət İmtahan Mərkəzi, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi və Almaniya Beynəlxalq Əməkdaşlıq Cəmiyyətinin (GiZ) birgə təşkilatçılığı ilə 11 oktyabr 2021-ci il tarixindən “Dövlət qulluğunda gender bərabərliyi: mövcud vəziyyət və çağırışlar” mövzusunda təlimlərin keçirilməsinə başlanılmışdır. Keçirilən 10 təlimdə mərkəzi icra hakimiyyəti orqanları, ali təhsil müəssisələrinin

nümayəndələrinin (100-dən çox) iştirakı təmin edilmişdir. İştirakçıların hər birinə "Dövlət qulluğunda gender bərabərliyi üzrə Kurikulum" təqdim edilmişdir.